

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 210 (20.864)

8 noyabr 2013-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## V.A.Muradova "Əməkdar incəsənət xadimi" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı – xalçaçılıq sahəsinin inkişafındakı səmərəli xidmətlərinə görə Vidadi Aydın oğlu Muradova **"Əməkdar incəsənət xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** — **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 noyabr 2013-cü il*

*Naxçıvan şəhərində keçirilən "Naxçıvan Muxtar Respublikasında sahibkarlıq potensialının gücləndirilməsinə dəstək" mövzusunda seminar bu gün başa çatacaq.*

## Sahibkarlığın inkişafı ilə bağlı keçirilən seminar bu gün başa çatacaq

Dünən ekspertlərdən Tofiq Hümbətovun "Dövlət qeydiyyatının "bir pəncərə" prinsipinin xüsusiyyətləri və praktik istifadə imkanı" mövzusunda məruzəsi dinlənilmişdir. Qeyd edilmişdir ki, dünyada gedən böhran proseslərinə və bir sıra aparıcı ölkələrdə iqtisadi artım sürətinin aşağı düşməsinə baxmayaraq, dövlətimizin çevik və işlək mexanizmlər üzərində qurulmuş uğurlu iqtisadi fəaliyyəti nəticəsində son illər iqtisadi artım tempinə görə lider mövqedə olan milli iqtisadiyyatımızda çox az ölkələrin nail olduğu yüksək dayanıqlılıq və sabitlik təmin edilmişdir. Dövlətin səyi və qətiyyəti nəticəsində ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, xüsusilə real sektora xarakterik olan yüksək artım tempi və aparılan islahatlar müasir dövrdə vergi sisteminin inkişafına təkan vermiş, gələcək inkişaf üçün yeni perspektivlər və imkanlar müəyyənləşdirmişdir. Qlobal informasiyalaşdırma və ümumdünya informasiya cəmiyyətinin formalaşdırılması sahəsində ən çox nəzərəçarpan tendensiya kimi elektron hazırlığın artımını və elektron hökumətin inkişafının sürətləndirilməsini göstərmək olar. Bu tendensiyaların müntəzəm monitorinqi bir çox beynəlxalq və milli təşkilatların əsas diqqət mərkəzindədir.

Bildirilmişdir ki, 2008-ci ildən başlayaraq respublikada sahibkarlığın inkişafına, azad rəqabət prinsipinin formalaşmasına dəstək olaraq sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının "bir pəncərə" prinsipi üzrə təşkili təmin edilmişdir. Elektron hökumətin əsas elementlərindən olan "bir pəncərə" sistemi məlumatların bir mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla iqtisadi strukturlarda aparılan bütün qeydiyyatların tamamilə sinxronlaşdırılmasını nəzərdə tutur. "Bir pəncərə" sisteminin tətbiqi ilə qeydiyyat prosedurlarının sayı azalmış və vaxt itkisinin qarşısı alınmışdır. Qeydiyyatın bu prinsip üzrə aparılması sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin inkişafına təkan vermişdir. Digər tərəfdən, "bir pəncərə" sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırmış, sahibkarların dövlət qurumlarından asılılığını azaltmış, çoxpilləli qeydiyyat prosedurlarını xeyli sadələşdirmişdir.

Tədbirdə məruzəçi İradə Cavadova təftiş prosedurları və əsassız yoxlamalara qarşı hüquqi müddəa haqqında danışmışdır.

Seminarın yekununda müzakirələr aparılmış, sahibkarları maraqlandıran suallara aydınlıq gətirilmişdir.

Məlumat üçün bildirək ki, seminarı Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi, Sahibkarlar Konfederasiyası, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi ATƏT-in Bakı Ofisi ilə birgə təşkil etmişdir.

**Səbuhi HÜSEYNOV**

## Muxtar respublika sahibkarları Azərbaycan-Türkiyə Biznes Forumunda

*Noyabrın 4-də Gəncə şəhərində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə Biznes Forumu keçirilmişdir.*

Azərbaycan və Türkiyə tərəfdən müvafiq dövlət qurumlarının nümayəndələri ilə yanaşı, yerli icra hakimiyyəti orqanları əməkdaşlarının və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların iştirak etdiyi forumda Azərbaycanda bir çox sahələrdə Türkiyə şirkətlərinin, eləcə də Türkiyədə Azərbaycan şirkətlərinin uğurlu fəaliyyətindən bəhs edilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycanın xarici ölkələrə yatırdığı investisiyaların həcminə görə Türkiyə birinci yerdə durur. Türkiyədən Azərbaycana da son on ildə böyük həcmdə investisiya yönəldilmişdir.

Forum muxtar respublikamızda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün də uğurlu olmuşdur. Tədbirdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin, "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Bakı ofisinin, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Naxçıvan Avtomobil Zavodu" MMC-nin Gəncə filialının, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin Bakı ofisinin nümayəndələri iştirak etmişlər.

Azərbaycanın investisiya mühiti və biznes imkanlarına dair təqdimatın və Türkiyə İxracatçılar Məclisinin fəaliyyətinə dair videoçarxın nümayişindən sonra biznes-forum iş adamları arasında ikitərəfli görüşlərlə davam etmişdir. Keçirilən ikitərəfli görüşlər iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına, iş adamları arasında işgüzar əlaqələrin daha da genişlənməsinə töhfə vermişdir. Bu çərçivədə Babək "Sirab" ASC-nin nümayəndəsi Emil Vəliyevlə Türkiyənin Bursa şəhərində fəaliyyət göstərən Aroma Bursa Meyvə Suları və Qida Ticarət şefi Leyla Aydın Yüksəl arasında əməkdaşlıq imkanları barədə müzakirələr aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidməti***

# Dövlət Bayrağı Günü qeyd olunur

*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Dəmirçi Kənd Mərkəzində 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar "Bayrağımız qürur mənbəyimizdir" mövzusunda dəyirmi masa keçirmişdir.*

Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açaraq tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmiş və bu əlamətdar günün əhəmiyyətindən danışmışdır. Bildirilmişdir ki, Azərbaycanın Dövlət bayrağı rəsmi olaraq 95 il öncə – 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin birinci toplantısının açılışında dalğalandırılmışdır.

Dövlət bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncədə fəaliyyət göstərərkən verilmişdi. 1918-ci ildə Bakı işğaldan azad edildikdən sonra hökumət Gəncədən paytaxta köçmüş və bir neçə mühüm qərar vermişdir. Onlardan biri də 1918-ci il noyabrın 9-da imzalanan Dövlət bayrağı haqqında qərar idi. Ə.Babayev qeyd etmişdir ki, özündə böyük mənalar ehtiva edən bayrağımızın mənsub olduğu xalq kimi başı çox bəlalar çəkmiş, zülmətlərə gömülmüş, lakin yenidən bütün bayraqlardan yüksəklərdə bərqərar olmuşdur. 1920-ci ilin aprel işğalından sonra cümhuriyyətin özü kimi rəmzləri də qadağan edilmişdir. Yetmiş il sonra – 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Ali Məclisinin sessiyasında üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdur. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi bayrağı kimi tanınması barədə vəsatət qaldırmışdır. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti həmin vəsatətə baxmış və bu bayrağın Azərbaycanın Dövlət bayrağı kimi qəbul olunması haqqında qərar çıxarmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də "Dövlət Bayrağı Meydanının yaradılması barədə", 2009-cu il noyabrın 17-də isə "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncamlar imzalamışdır. Dövlət Bayrağı Gününün təsis edilməsi Azərbaycan Prezidentinin müstəqilliyimizə, dövlətimizin atributlarına verdiyi dəyərin bariz nümunəsidir.

Natiq çıxışında xüsusi vurğulamışdır ki, 2011-ci ilin mart ayından Naxçıvan şəhərinin ən yüksək zirvəsində Bayraq Meydanının tikintisi üçün 10 hektara yaxın ərazi ayrılmışdır. Meydanda üçrəngli bayrağımız 53 metrlik bayraq dirəyində dalğalanır.

Sonra Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədr müavini İbrahim Hənifəzadə, Dəmirçi kənd tam orta məktəb ilk partiya təşkilatının sədri Ceyhun Abbasov, YAP üzvü Teymur Abbasov və başqaları çıxış etmişlər. Qeyd olunmuşdur ki, bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvollaşdırır. Zəngin tarixi irsdən yaranaraq uğrunda on minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə izah edir.

Tədbirə Əmir Babayev yekun vurmuşdur.

* * *

*9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə Naxçıvan Dövlət Universitetində də tədbir keçirilmişdir. Ali təhsil ocağının Tələbə-Gənclər Təşkilatı tərəfindən təşkil olunan tədbir Azərbaycan Respublikasının üçrəngli Dövlət bayrağının zala gətirilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlamışdır.*



Universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək bildirmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə – 1918-ci il iyun ayının 24-də Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ilk qərar verilmiş, bu qərara əsasən, üzərində ağrəngli aypara və səkkizguşəli ulduz təsvir olunan qırmızı bayraq Dövlət bayrağı kimi qəbul olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli qərarı ilə həmin bayraq aypara və səkkizguşəli ulduz qalmaqla üçrəngli – mavi, qırmızı və yaşıl zolaqlardan ibarət bayraqla əvəz edilmişdir. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə bu bayraq ləğv edilmişdir. Məhz bu gün – 9 noyabr tarixi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Fərmanı ilə Dövlət Bayrağı Günü elan edilmişdir.

"Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin sessiyasında qaldırılmışdır", – deyən rektor bildirmişdir ki, həmin sessiya tariximizdə Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur.

Sonra Ümumi tarix kafedrasının müəllimi Arzu Abdullayev "Azərbaycan bayrağı dövlətimizin müstəqillik simvoludur" mövzusunda məruzə etmişdir. Bildirilmişdir ki, bu gün Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Bu da ulu öndər Heydər Əliyevin ideyalarını uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət rəmzlərinə dərin məhəbbətinin təcəssümüdür. Ölkə Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən qaynaqlanan milli dəyərlərə hörmət və ehtiram Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir.

Sonra İncəsənət fakültəsinin tələbələrinin ifasında bədii kompozisiya və Dövlət bayrağı haqqında film nümayiş etdirilmişdir.

## Əmanətlərin qaytarılması davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında" 2012-ci il 14 mart tarixli Fərmanı ilə ötən ilin ikinci yarısından başlayaraq keçmiş SSRİ dövründə məlum proseslər nəticəsində batmış əmanətlər geri qaytarılır. Özünə aid olmayan əmanətləri mənafeləri pozulmuş əmanətçilərə və ya onların varislərinə qaytarmaqla dövlətimiz bir daha vətəndaşlarına qayğısını nümayiş etdirmişdir. Azərbaycanda həmin əmanətlərin qaytarılmasında əmanətçilərin xeyrinə tətbiq olunan qiymətləndirmə indiyə qədər MDB məkanında tətbiq olunmuş ən yüksək qiymətləndirmədir. Əhalinin bütün təbəqələrinin maraqları nəzərə alınmaqla əmanətlərin geri qaytarılması zamanı yarana biləcək hüquqi və texniki məsələlərin həll olunması üçün verilən imkanlar və kifayət qədər vaxt da dövlətin bu məsələnin həllində nə qədər maraqlı olduğunu göstərir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, muxtar respublikada fəaliyyət göstərən Kapital Bankın Baş İdarəsi və onun rayon filialları tərəfindən əmanətlərin qaytarılması üçün lazımi şərait yaradılmışdır. 2012-ci il iyun ayının 1-dən başlayaraq 2013-cü il noyabr ayının 7-dək olan məlumata görə, 37 min 531 əmanətçiyə 13 milyon 993 min 254 manat nağd pul vəsaiti ödənilmişdir.

Qeyd edək ki, əmanətlərin qaytarılması 2013-cü il dekabr ayının 31-dək davam etdiriləcəkdir.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikada həyata keçirilən iqtisadi inkişaf modelinin strateji istiqamətlərindən biri mövcud təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunmasıdır. Bu da, öz növbəsində, regionların sosial-iqtisadi inkişafı, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı və bir sıra konkret sahələr üzrə mühüm dövlət proqramlarının qəbul edilməsini şərtləndirir. Ötən illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə muxtar respublikanın gələcək inkişafında təməl rolunu oynayan dövlət proqramları təsdiq edilib. Bu proqramların icrasının uğurla və yüksək keyfiyyətlə həyata keçirildiyi bölgələrimizdən biri də Babək rayonudur. Bunu 2013-cü ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri də təsdiqləyir.*

# Dövlət proqramlarının uğurlu icrası davamlı inkişafa təkan verir



Naxçıvanın malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, infrastrukturun yenilənməsi, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması muxtar respublikada prioritet sahələrdir. Qeyd etmək istərdik ki, bu gün muxtar respublikanın şəhər və rayonlarının, eləcə də qəsəbə və kənd yaşayış məntəqələrinin mövcud inkişaf səviyyəsi onların qarşıdakı dövr ərzində, ümumilikdə, ölkənin sosial-iqtisadi həyatında daha böyük rol oynayacağını deməyə əsas verir. Yazıda sadalayacağımız göstəricilər isə öz növbəsində, regionların tərəqqisi istiqamətində həyata keçirilən dövlət siyasətinin, qəbul olunmuş müvafiq proqramların artıq öz müsbət nəticələrini verməsinin real təsdiqi kimi çıxış edir.

Hər il rayon mərkəzində və kənd yaşayış məntəqələrində məktəb, səhiyyə, mədəniyyət müəssisələri üçün binalar, hüquq-mühafizə orqanları, rabitə və digər sahələr üçün yeni obyektlər inşa olunur. Təkcə bu ilin yanvar-sentyabr aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 53 milyon 238 min manat və ya 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,6 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 8,4 faiz artaraq 50 milyon 330 min manat təşkil edib. Həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna da müsbət təsir göstərib. Babək Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, bu ilin yanvar-avqust ayları ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz artaraq 351,2 manata çatdırılıb. Həyata keçirilən quruculuq tədbirləri sayəsində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binasının və texniki parkının, rayon Uşaq-Gənclər Şahmat Məktəbi binasının, Şəkərabad kəndində kənd mərkəzinin, feldşer-mama məntəqəsi üçün binanın tikintisi, rayon Dövlət Notariat Kontorunun və rayon Qeydiyyat Şöbəsinin inzibati binasının əsaslı təmiri başa çatdırılıb, rayon Mərkəzi Xəstəxanasının tikintisi, Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmiri, 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinin ucaldılmış abidə kompleksinin təmiri davam etdirilib. Şəkərabad kəndində 306 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması yekunlaşdırılıb. Hazırda Babək qəsəbəsində uşaq bağçası binasının, Çeşməbasar kəndində kənd mərkəzinin, həkim ambulatoriyası binasının tikintisi, Cəhri kəndində 1 nömrəli tam orta məktəb binasının yenidən qurulması, Cəhri Kənd Sahə Xəstəxanasının əsaslı təmiri, Şıxmahmud kəndində həkim ambulatoriyası, Çeşməbasar və Sirab kəndlərində tam orta məktəb binalarının təmiri davam etdirilir. Rayon üçün böyük əhəmiyyətə malik olan yolların çəkilişinə də xüsusi diqqət yetirilir. Belə ki, Şıxmahmud kəndində 2,8 kilometr uzunluğunda avtomobil yolunun yenidən qurulması başa çatdırılıb, rayon ərazisində bir körpünün tikintisi, Hacıvar-Vayxır-Sirab, Şəkərabad-Hacıvar avtomobil yollarının yenidən qurulması, rayon ərazisində bir körpünün isə təmiri davam etdirilib. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Dərəşam-Nehrəm mənzilinin 433-cü kilometrində sel sularının istiqamətləndirilməsi və dağ uçqunlarının qarşısının alınması məqsədilə istinad divarlarının tikintisi başa çatdırılıb. Bütün bu sadalanan quruculuq tədbirləri rayonun gündən-günə müasirləşən simasına yeni çalarlar əlavə edib.

Etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın başlıca şərtidir. Ona görə də əhalinin əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir. Muxtar respublika rəhbərinin sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası istiqamətində Babək rayonunda görülən işlər də davamlı inkişafın təmin edilməsinə yönəldilib. Adıçəkilən dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin bu bölgəmizdə vaxtında və layiqincə yerinə yetirilməsi rayonda torpağın hər qarışından düzgün və səmərəli istifadə edilməsinə, hər hektarın məhsuldarlığının artırılmasına, kənd təsərrüfatı sahəsində daha yüksək nailiyyətlər əldə olunmasına, bütövlükdə, ərzaq təhlükəsizliyinin təmin edilməsinə hədəflənib.

Bu ilin yanvar-sentyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,3 faiz çox sənaye məhsulu istehsal olunub, rayonun sənaye müəssisələrində 2698 işçi çalışıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 358 manata çatdırılıb. Cari ilin ilk 9 ayında rayon ərazisində bir heyvandarlıq təsərrüfatı, Qoşadizə kəndində "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı tərəfindən müasir avadanlıqlarla təchiz olunmuş ət məhsulları kompleksi, Nehrəm, Qahab, Yarımca və Şıxmahmud kəndlərinin hər birində bir çörək istehsalı sahəsi, Araz kəndində quşçuluq təsərrüfatı, Qahab, Gülşənabad, Kültəpə və Qaraqala kəndlərinin hər birində bir meyvəçilik təsərrüfatı yaradılıb, Cəhri kəndində quşçuluq təsərrüfatının fəaliyyətinin genişləndirilməsi işləri başa çatdırılıb. Bu sahədə görülən işlər yuxarıda sadalananlarla yekunlaşmır. Belə ki, hazırda rayonun Nehrəm, Cəhri və Şıxmahmud kəndlərinin hər birində quşçuluq, Qahab və Didivar kəndlərinin hər birində bir üzümçülük, Zeynəddin kəndində arıçılıq təsərrüfatlarının, Qahab kəndində çörək, Qaraqala və Qahab kəndlərinin hər birində bir pendir istehsalı sahəsinin, Qoşadizə kəndində istixana kompleksinin, Kültəpə və Qoşadizə kəndlərinin hər birində südün emalı və xama istehsalı sahəsinin, Qahab və Badaşqan kəndlərinin hər birində şirniyyat (lokum) istehsalı sahəsinin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Rayonda aqrar sahənin inkişafına xüsusi diqqət yetirilir. Babək Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 1 oktyabr tarixə rayonda 10529 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 32264 ton məhsul yığılıb. Hər hektarın məhsuldarlığı orta hesabla 30,6 sentner olub. 1 oktyabr 2012-ci illə müqayisədə yığım sahəsi 3,4 faiz və yaxud 343 hektar, yığılmış məhsul 3,2 faiz və yaxud 994 ton çoxdur. Bundan başqa, 7776 hektar buğda əkini sahəsindən 24162 ton məhsul toplanılıb. Orta hesabla hər hektarın məhsuldarlığı 31,1 sentnerə çatdırılıb. 2586 hektar arpa əkini sahəsindən isə 7560 ton arpa yığılıb. Orta hesabla hər hektardan məhsuldarlıq 29,2 sentner olub. Digər əkinçilik sahələrində də məhsuldarlıq yüksəkdir.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" Babək rayonunda da uğurla icra edilir. Mühüm elmi-nəzəri, sosial-iqtisadi əhəmiyyət kəsb edən proqramda qarşıya qoyulan tələblərin maksimum şəkildə icrası üçün münbit ərazilər, əlverişli iqlim və su təminatı baxımından rayonun potensialı və imkanları genişdir. Buna görə də ötən ildən başlayaraq burada bağların yaradılması və ixtisaslaşdırılmasına, yerli şəraitə uyğunlaşdırılmış məhsuldar meyvə-tərəvəz növlərinin çeşidlərinin bərpa edilməsinə, yeni texnologiyalara əsaslanan meyvə-tərəvəz emalı müəssisələrinin yaradılmasına xüsusi diqqət yetirilir. Bundan başqa, bölgədə qiymətli meyvə ağaclarının və növlərinin yetişdirilməsi üçün aqrotexniki qaydalara ciddi əməl edilməsi, il ərzində əhalinin meyvə-tərəvəzlə təminatı üçün soyuducu anbarların tikintisi, meyvə-tərəvəzlə bağlı sahələrin inkişafının müdafiə olunması, meyvə və giləmeyvə növlərinin genefondunun və daha iqtisadi əhəmiyyətli növlərinin müəyyənləşdirilməsi məsələləri də diqqət mərkəzindədir. Barverən meyvə bağlarından 5320 ton məhsul yığılıb ki, bu da 1 oktyabr 2012-ci illə müqayisədə 53 ton çoxdur. Barverən üzüm bağlarından 4883 ton məhsul yığılıb. Bu da 1 oktyabr 2012-ci illə müqayisədə 1,3 faiz və yaxud 61 ton çoxdur.

Əkinçiliyin inkişaf etdirilməsində əsas amillərdən biri torpaq sahələrini normalara uyğun suvarma suyu ilə təmin etməkdən ibarətdir. Torpağın münbitliyinin artırılması isə yüksək rəqabət qabiliyyətinə malik olan keyfiyyətli ərzaq məhsulları istehsalı üçün şərait yaradır. Rayonda suvarma tədbirlərinin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən lazımi tədbirlər həyata keçirilir. Bu məqsədlə ötən illərdə su anbarları, nasos stansiyaları tikilib istifadəyə verilib, kanal və arxlar çəkilib, subartezian quyuları qazılıb. Bu ilin ötən dövründə isə Cəhri və Sirab kəndlərində drenaj xətlərinin tikintisi, Cəhri, Nəcəfəlidizə və Yarımca kəndlərində içməli su xətlərinin çəkilişi, Nəcəfəlidizə kəndində bir kəhrizin təmiri, rayon ərazisində kanal və arxların lildən təmizlənməsi işləri başa çatdırılıb, Qahab kəndində bir kəhrizin təmiri, Nehrəm kəndində kollektorun lildən təmizlənməsi işləri davam etdirilib.

*Yuxarıda sadalanan uğurlu inkişaf göstəricilərinə əsaslanaraq belə demək olar ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi alternativsiz inkişaf yolu muxtar respublikanın bütün bölgələri kimi, Babək rayonunu da tərəqqiyə qovuşdurub, həyata keçirilən məqsədyönlü siyasət sayəsində bu rayon davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətlər fonunda yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Rayonda mövcud potensialdan səmərəli istifadə olunmaqla iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması, məşğulluq səviyyəsinin artırılması və ümumilikdə, rayon iqtisadiyyatının dinamik inkişafı təmin edilib.*

**Səbuhi HÜSEYNOV**

## Yeni korpus təhvilə hazırlanır

***Naxçıvan Muxtar Respublikasında əhaliyə yüksəkkeyfiyyətli məhsullar təklif olunmaqla nümunəvi xidmət etmək imkanlarına malik müasir ticarət mərkəzləri tikilib istifadəyə verilir. Belə müəssisələrdən biri də "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan şəhərindəki Ə.Əliyev küçəsində fəaliyyət göstərən "Cahan" Ticarət Mərkəzidir.***

"Cahan" Ticarət Mərkəzi fəaliyyətə başladığı dövrdən ötən müddət ərzində ticarət mərkəzinə istər alıcı, istərsə də satıcı qismində müraciət edənlərin sayı qat-qat artmış, kompleksin yenidən qurulması və yeni korpusun inşa olunması zərurəti yaranmışdır. Digər sahibkarlıq subyektləri kimi, "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyəti də göstərilən dövlət qayğısından bəhrələnmiş, təqdim olunmuş layihəyə uyğun Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilmişdir. Cari ilin aprel ayından kompleksin ərazisində 8750 kvadratmetr torpaq sahəsi ayrılmış, 350 mağazanın və digər xidmət sahələrinin fəaliyyət göstərəcəyi ikimərtəbəli yeni korpusun inşasına, cari ilin iyun ayından isə "Cahan" Ticarət Mərkəzinin əsas binasında yenidənqurma işlərinə başlanılmışdır.

Yeni korpusda dəmir konstruksiya və hörgü işləri vaxtında başa çatdırılmış, ayrı-ayrı mağazalara avtomatik qapılar quraşdırılmışdır. Həmçinin yeni korpus və ayrı-ayrı mağazalar müasir isitmə, soyutma və havalandırma sistemi ilə təmin edilmiş, hər bir mağazaya telefon xətti çəkilmişdir. Burada hər bir sahibkara və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşlara internetdən istifadə etmək imkanı yaradılmışdır. Ayrı-ayrı mağazalarda satışa çıxarılan müxtəlif çeşiddə malların reklamını və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşların məlumatlandırılmasını təmin etmək məqsədilə ticarət kompleksində monitorlar quraşdırılır. Bundan başqa, ticarət mərkəzinin əsas binasının fasad hissəsi dizayn elementləri ilə zəngin olan tikinti materialları və travertin üzlük plitələrlə bəzədilir. Hazırda ticarət mərkəzinin yeni korpusunun ayrı-ayrı mağazalarında satışa çıxarılacaq malların təyinatına uyğun vitrinlər yığılır, giriş-avtomobil yollarına asfalat-beton örtük salınması və burada avtomobil dayanacağının yaradılması istiqamətində işlər davam etdirilir. Yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulan ticarət mərkəzinin yeni korpusunda 550 nəfərdən çox fiziki şəxs biznes fəaliyyəti ilə məşğul olacaqdır.

Onu da qeyd edək ki, əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalı üçün hərtərəfli şərait yaradılmış, aqrar bölmənin inkişafı üçün güzəştli kreditlər ayrılmışdır. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermişdir. Hər il sahələrdə bol məhsul yetişdirilir. Həmin məhsulların ticarət mərkəzində rahat şəkildə satılması üçün lazımi şərait yaradılmışdır. Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan sahibkarların artan müraciətləri nəzərə alınaraq ticarət kompleksinin ərazisində fəaliyyət göstərən kənd təsərrüfatı məhsullarının satışı bazarında da yeni müasir korpusun tikilərək sahibkarların istifadəsinə verilməsi nəzərdə tutulub.

**Kərəm HƏSƏNOV**

## MUMEENA layihəsinin Bakı şəhərində keçirilmiş növbəti təliminin təqdimatı

***Naxçıvan Dövlət Universitetində MUMEENA layihəsinin Bakı şəhərində keçirilmiş növbəti təliminin təqdimatı olmuşdur. Tədbiri universitetin rektoru, professor Saleh Məhərrəmov açaraq dünya təhsil sisteminə inteqrasiya, beynəlxalq təcrübə mübadiləsi, tədrisin səviyyəsinin yüksəldilməsi, tələbələrin xaricdə təhsil alması, yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində ali təhsil müəssisəsində görülən işlərdən danışmışdır. Rektor bildirmişdir ki, ali təhsil ocağının dünyanın tanınmış universitetləri ilə beynəlxalq əlaqələri mövcuddur və bu əlaqələr genişlənməkdədir.***

"Universitet bir çox beynəlxalq layihələrdə uğurla təmsil olunur. Tələbə mobilliyinin artırılması nəticəsində Naxçıvan Dövlət Universitetinin bir neçə tələbəsi təhsilini müxtəlif ölkələrin ali təhsil ocaqlarında davam etdirir", – deyən rektor universitetin MUMEENA – Avropa Şurasının Şərqi Avropada Tibb Təhsilinin Müasirləşdirilməsi Layihəsində də uğurla iştirak etdiyini vurğulamışdır.

Bu yaxınlarda Litvanın Kaunas şəhərində Kaunas Texnologiya Universitetinin təşkil etdiyi "Erasmus+" məlumat günü"ndə Naxçıvan Dövlət Universitetini təmsil etmiş universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov çıxış edərək tədbir haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, "Şərqi əməkdaşlıq universitetləri ilə yeni əməkdaşlıq imkanları"na həsr olunmuş "məlumat günü" Avropa Komissiyası tərəfindən 2014-cü ilin yanvarında başlanılacaq "Erasmus+" proqramının təqdimatı məqsədilə təşkil edilmişdir. 2014-2020-ci illəri əhatə edəcək bu proqram Şərq tərəfdaşlığı ölkələri universitetlərinin tələbə və əməkdaşlarının Avropada təhsil almaq və ya təlim keçmək imkanlarını daha da genişləndirəcəkdir.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin Pediatriya kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru, MUMEENA layihəsinin yerli koordinatoru Elmar Rzayev Avropa Şurasının Şərqi Avropada Tibb Təhsilinin Müasirləşdirilməsi Layihəsinin tibb sahəsində təcrübəli mütəxəssislərin hazırlanması baxımından əhəmiyyətindən bəhs etmişdir. Bildirilmişdir ki, Avropada tibb təhsilinin modelini təqdim edən və İngiltərə, Niderland, İspaniya və İtaliya kimi Avropa ölkələrinin iştirak etdiyi bu layihədə Naxçıvan Dövlət Universiteti 2012-ci ildən uğurla təmsil olunur. Layihənin Bakı şəhərində keçirilmiş növbəti təlimində tibb təhsilinin inteqrasiyası, tələbələrin tədqiqat bacarıqlarının artırılması, klinik sübutlara əsaslanan mühakimələr, müəllimlərin tələbələri, tələbələrin isə müəllimləri qiymətləndirməsi kimi məsələlər müzakirə olunmuşdur.

**Mehriban SULTAN**

# Daha bir təlim kursu başa çatmışdır

***Naxçıvan Dövlət Universitetində Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi "Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində keçirilən növbəti təlim kursu başa çatmışdır.***

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən reallaşdırılan və "Statistik təhlil" mövzusuna həsr olunan təlim kursunun yekununda universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyə və tapşırıqlarına əsasən, kadr potensialının gücləndirilməsinin prioritet vəzifə kimi daim diqqət mərkəzində saxlandığını bildirmişdir. Qeyd olunmuşdur ki, bir il ərzində universitetdə müxtəlif mövzulara həsr olunmuş təlim kursları da məhz bu məqsədlə təşkil edilmişdir. Bu təlim kurslarında regionun müxtəlif dövlət strukturlarının əməkdaşları, habelə universitetin müxtəlif ixtisaslar üzrə müəllim və tələbələri iştirak etmişlər. Anar Kazımov əmin olduğunu bildirmişdir ki, təlim kursu nəticəsində statistik təhlilin istifadəsi üzrə potensial güclənəcək və ekspertlərlə bərabər, təlimdə fəal iştirak edənlər də yeni metodologiyadan faydalana biləcəklər.

Ekspert-təlimçi, Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı, Azərbaycan Universiteti Biznes məktəbinin dekanı Elçin Raşidov, İqtisadi və Sosial İnkişaf Mərkəzinin eksperti, ekonometrika və maliyyə fənləri üzrə təlimçi Ziya Əlili təşkilatçılığa görə minnətdarlıqlarını bildirmişlər. Qeyd edilmişdir ki, təlim zamanı geniş istifadə olunan statistik metod və üsullar barədə iştirakçılara məlumat verilmiş, həmçinin statistik təhlilin ən faydalı şəkildə tətbiq olunduğu hallar müəyyənləşdirilmişdir.

Sonda iştirakçılara sertifikatlar təqdim olunmuşdur.

## Payız iməciliklərində 200 hektardan çox ərazidə yeni yaşıllıqların salınması nəzərdə tutulub

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir. Müxtəlif təbii amillər, həmçinin muxtar respublikada kənd təsərrüfatının, müxtəlif sənaye sahələrinin inkişafı yaşıllıqların əhəmiyyətini daha da artırır və həyati əhəmiyyətli edir.***

Ötən əsrin 90-cı illərindən əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yaşıllaşdırma tədbirləri geniş vüsət alıb, yaşıllıqların ərazisi 0,6 faizdən 10 faizədək artırılıb. Görülən işlər 2013-cü ildə də uğurla davam etdirilib. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, muxtar respublikada payız mövsümündə 200 hektardan çox ərazidə meşəsalma, meşəbərpa işlərinin görülməsi və meyvə bağlarının salınması planlaşdırılıb.

Mövsümlə əlaqədar olaraq Şahbuz rayonunun Ağbulaq kəndi ərazisində 6 hektardan çox ərazidə yaşıllaşdırma tədbirləri aparılaraq 8800-dən çox cəviz, ərik, alma, armud, tut, badam və digər ağaclar əkilib.

Naxçıvan-Şahbuz avtomobil yolunun kənarlarında isə nəzərdə tutulmuş 36,25 hektar ərazidə torpaq hazırlama işləri aparılıb, çalalar qazılıb, suvarma mənbələri müəyyənləşdirilib. Adıçəkilən ərazidə indiyədək muxtar respublikanın müxtəlif idarə, təşkilat və müəssisələri tərəfindən 10 mindən artıq meyvə tingi əkilib.

Qeyd edək ki, payız mövsümü ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müxtəlif meşə sahələrində aqrotexniki tədbirlər həyata keçirilir, yeni əkilən ağaclara qulluq olunur.

# Biz sizdən öyrəndik qəhrəmanlığı

***Noyabrın 7-də Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəbdə "Biz sizdən öyrəndik qəhrəmanlığı" devizi altında tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının birgə təşkil etdikləri tədbiri giriş sözü ilə məktəbin direktoru Məhərrəm İsmayılov açıb, şagirdlərlə görüşün əhəmiyyətindən danışıb.***

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının sədri Mirməcid Seyidov tədbirdə çıxış edərək bildirib ki, vətənpərvərlik tərbiyəsi insanlara vətən sevgisi, məsuliyyət hissi, hər an ana torpağın müdafiəsinə hazırolma kimi yüksək insani keyfiyyətlərin aşılanmasıdır. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik tərbiyəsi diqqət mərkəzində saxlanılır. Xalqımızın hər zaman vətənpərvər oğullar yetişdirdiyini şagirdlərin diqqətinə çatdıran Mirməcid Seyidov onu da vurğulayıb ki, onlar Vətənimizi ana məhəbbəti ilə sevmiş, torpaqlarımızın bütövlüyü uğrunda şücaətlər göstərmişlər.1990-1993-cü illərdə muxtar diyarımızın qorunmasında, Qarabağ uğrunda gedən döyüşlərdə gənclərimiz böyük qəhrəmanlıqlar göstərmişlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov, Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəbin tarix müəllimi Rauf Bağırov, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şahbuz Rayon Şöbəsinin rəis müavini Elşən Mərdanlı və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının Şahbuz Rayon Şöbəsinin sədri Xəqani Həsənov çıxış edərək bildiriblər ki, vətənpərvərlik tərbiyəsi həm də gənc nəsildə milli kimliyi, tarixi keçmişi unutmamağı formalaşdırır. Buna görə ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir, bununla bağlı aidiyyəti orqanlarla birgə şagirdlər arasında müxtəlif mövzularda tədbirlər keçirilir.

Sonda şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

**Xəbərlər şöbəsi**

## Avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və avtomobillərin kasko sığortası bizə nə vəd edir?

**Müasir insan həyatını avtomobillərsiz təsəvvür etmək mümkün deyildir. Belə ki, təqribən yüz əlli illik bir inkişaf dövründən sonra avtomobilqayırma sənayesi elə bir səviyyəyə gəlib çatmışdır ki, artıq bütün dünyada hər kəs orta hesabla gününün müəyyən bir hissəsini avtomobil nəqliyyatında keçirməklə bir yerdən başqa bir yerə sürətli və rahat hərəkətini təmin edir. Beləliklə, gündən-günə daha çox istifadə olunan avtomobillər müasir dövrümüzün sürət, komfort, rahatlıq, bir çox hallarda isə moda və göstəriş vasitəsinə çevrilmişdir.**

Bütün bunlarla yanaşı, avtomobillər həm də potensial bir risk mənbəyidir. Hər yerdə sayı sürətlə artan avtomobil nəqliyyatı vasitələrindən istifadə ilə hərəkət zamanı yaranan risklərin minimumlaşdırılması üçün nə qədər infrastruktur yenilənməsi, ciddi qayda-qanun, cərimə və cəzalar tətbiq olunsa da, görülən bütün tədbirlər baş verə biləcək hadisələrin hamısının qarşısını ala bilmir. Belə ki, avtomobillərdən istifadə zamanı yaranan risk dərəcəsi yüksək olan hadisələr zamanı həm avtomobilin özünə, həm də onun iştirakçısı olduğu hadisənin digər tərəfinə – üçüncü şəxslərin həyatına, onun sağlamlığına, mal və əmlakına zərərlər dəyə bilər. Dünya statistikasına baxsaq, ildə təqribən 1,3 milyon nəfərin, hər gün isə orta hesabla 3300 nəfər insanın avtomobil qəzalarında həlak olması, 50 milyona qədər insanın da bu qəzalarda müxtəlif dərəcəli xəsarətlər alması faktı diqqəti çəkir. Avtomobil qəzalarının daha az başvermə sayına görə ölkəmiz dünya statistikasında bir çox inkişaf etmiş ölkələrdən yaxşı göstəriciyə malik olsa da, avtomobil qəzalarına hələ də rast gəlmək mümkündür.

Avtomobil nəqliyyatı vasitələrindən rahatlıqla istifadə olunmasında sığortanın da əhəmiyyəti böyükdür. Çünki sığorta olunmaq bu vasitələrdən istifadə zamanı bəzən qaçılması mümkün olmayan bədbəxt hadisələrin maddi zərərlərinin əvəz olunmasında avtomobil nəqliyyatı sahibinin köməyinə gəlir. Avtomobillərdən istifadə zamanı yaranan arzuedilməyən hadisələr həm avtomobil sahibinə, həm də digər – üçüncü şəxslərə maddi zərərlər vurur. Ölkəmizdə mövcud olan qanuna əsasən, belə bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyə biləcək zərərləri ödəmək üçün icbari olaraq avtonəqliyyat sahiblərinin mülki məsuliyyətin sığortası, avtomobilin özünə dəymiş zərərləri ödəmək üçün isə könüllü tam (kasko) sığorta müqaviləsi bağlanılır. Avtomobilin hərəkəti zamanı başqasının avtomobilinə və həyatına vura biləcəyi zərərlə əlaqədar avtomobil sahibinin çıxılmaz vəziyyətə düşə biləcəyi nəzərə alınaraq mülki məsuliyyətin sığortası hər kəs üçün icbari qaydada tətbiq olunur. Sığorta hadisəsi baş verdiyi gün zərərvuran avtomobil sahibinin öz nəqliyyat vasitəsinə dəymiş zərər isə bu hadisəyə qədər onun tam (kasko) sığorta müqaviləsi olduğu halda ödənilir. Ona görə də bəzi avtonəqliyyat vasitələri sahibləri bir çox hallarda təkcə mülki məsuliyyətlərini sığortalamaqla hər cür dəymiş zərərlərin ödəniləcəyini düşünürlər. Halbuki mülki məsuliyyətin icbari sığortası ola biləcək qəza halında digər, yəni avtomobil sahibinin özü və daşıdığı sərnişinlərdən başqa, üçüncü şəxslərin həyatına, sağlamlığına, mal və əmlakına vurduğu zərərlərin onun özü tərəfindən deyil, sığorta agentliyi tərəfindən ödənilməsini təmin edir. Tam və ya başqa adı ilə kasko sığorta isə avtomobil sahibinin sərxoşluğu və hadisənin qəsdən törədildiyi hallardan başqa, ola biləcək bütün zərərlər, hətta təbiət hadisələri və təsadüflər nəticəsində həmin avtomobilin sahibinə dəymiş zərərlərə təminat verir. Ona görə də avtonəqliyyat vasitəsi sahibləri mülki məsuliyyətin icbari sığortası ilə yanaşı, kasko sığorta müqaviləsini bağlamaqla sığorta zəmanətlərindən faydalana bilərlər.

Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortasının aparılması üçün konkret qaydalar vardır. İlk olaraq göstərmək lazımdır ki, mühərrikinin silindrlərinin həcmi 50 sm$^3$-dən artıq olan avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası icbaridir. Bundan sonra isə tətbiq olunan icbari sığorta haqqı baza məbləğinə əmsallar tətbiq olunmaqla aparılır. Hazırkı sığorta haqqının baza məbləği 50 manat müəyyən edilmişdir ki, bu da mühərrikinin həcmi 50 sm$^3$-dən 1500 sm$^3$-dək olan minik avtomobillərinə tətbiq olunur. Mühərrikinin həcmi 1500 sm$^3$-dən yuxarı həcmli olan minik avtomobillərinin sığorta haqqı əmsallar tətbiq olunmaqla hesablanır. Məsələn, mühərrikinin həcmi 1500 sm$^3$-2000 sm$^3$ olan minik avtomobilləri üçün 1,5 əmsal tətbiq olunaraq sığorta haqqı 75 manat müəyyənləşdirilir. Mühərrikinin həcmi 2000 sm$^3$-dən 2500 sm$^3$-dək olan minik avtomobilləri üçün 2,0 əmsal tətbiq olunmaqla, 100 manat sığorta haqqı müəyyən edilir. Mühərrikin həcmi artdıqca tətbiq olunan əmsalla sığorta haqqının məbləği də yüksəlir.

Yük avtomobilləri və onların bazasında istehsal olunmuş digər avtomobil nəqliyyatı vasitələri üçün icazə verilən maksimum kütləsinə görə, 3500 kiloqram olduqda 3,0 əmsalı tətbiq olunmaqla, 150 manat, 3500 kiloqramdan 7000 kiloqramadək olduqda 4,0 əmsal tətbiq olunmaqla, 200 manat, 7000 kiloqramdan artıq kütləyə görə isə 5,0 əmsal tətbiq olunmaqla, 250 manat sığorta haqqı hesablanır. Hüquqi şəxslərə məxsus avtonəqliyyat vasitələri üçün minik və yük nəqliyyat vasitəsi olmasından asılı olmayaraq, 1,2 əmsalı əlavə olunur.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası müqavilə müddətində sığorta hadisəsi baş verdikdə mövcud qanuna görə üçüncü şəxs olan fiziki şəxslərin həyat və sağlamlığına dəyən zərərə görə bir şəxs üçün 5 min manat, ümumilikdə isə 50 min manatdan çox olmamaq şərtilə, əmlakına dəyən zərərə görə isə 5 min manat məbləğində sığorta ödənişləri verilir. Avtomobillərin kasko sığortası isə qəbul olunmuş qaydalara görə avtomobilin sığorta məbləğinin 2,5 faizlik tarifə nisbətdə sığorta haqqı hesablanıb ödənilməklə həyata keçirilir. Bütün bu ödənişlər isə faktiki dəymiş zərər məbləğinə görə sığorta məbləğindən yüksək olmamaq şərti ilə ödənilir.

**Əli CABBAROV**

# Həmyerlimiz Sərxan Bünyadzadə muğam televiziya müsabiqəsinin qalibi oldu

***Milli dəyərlərimiz yaşadılır və ya kimdir Sərxan Bünyadzadə?***

Professional musiqi mədəniyyətimizin mühüm qolunu Azərbaycan muğamı təşkil edir. Təsadüfi deyildir ki, bu milli musiqinin bəşəri əhəmiyyətini nəzərə alan YUNESKO 2003-cü ildə onu Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin şah əsərlərindən biri elan edib. Azərbaycanda bu irsin qorunması, təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində Heydər Əliyev Fondu böyük layihələrə imza atıb. Belə ki, beynəlxalq və ölkə miqyaslı muğam müsabiqələrinin keçirilməsi son illər ənənə şəklini alıb. 2002-ci ildən keçirilməyə başlanılan muğam televiziya müsabiqələri isə muğama maraq göstərən gənclərin istedad və bacarıqlarının üzə çıxarılmasında, bu qiymətli irsin yaşadılmasında mühüm rol oynayır. Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Mədəniyyəti Fondunun layihəsi, Azərbaycan Televiziyasının təşkilatçılığı və Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə üç ay davam edən "Muğam Müsabiqəsi-2013" Televiziya Müsabiqəsinə noyabrın 6-da yekun vurulub. Qeyd edək ki, cari ilin avqustun 6-da Beynəlxalq Muğam Mərkəzində "Muğam Müsabiqəsi-2013" Televiziya Müsabiqəsinin startı verilmişdi. Ümumilikdə, 500-dən çox gəncin iştirak etdiyi birinci turdan növbəti mərhələyə 48 xanəndə vəsiqə almış, onlardan isə 21-i Bakı səhnəsində çıxış etmək hüququ qazanmışdı.

Bu gün naxçıvanlı muğamsevərlər sevinc içərisindədirlər. Çünki final mərhələsində naxçıvanlı gənc muğam ifaçısı Sərxan Bünyadzadə müsabiqənin qalibi olub.

Kimdir Sərxan Bünyadzadə? O, Babək qəsəbəsində anadan olub. İlk musiqi təhsilini Nehrəm Kənd Uşaq Musiqi Məktəbində alıb. Muğam müəllimi Hünər Əliyev olub. İstedadlı muğam ustası Hünər müəllim elə o illərdə Sərxanın istedad və bacarığını hiss edib. Öz köməyini ondan əsirgəməyib. Bununla kifayətlənməyən Sərxan başqa muğam bilicilərindən də öyrənməyə çalışıb.

***İlk uğurlar, müəllim sevinci***

Sərxan musiqi məktəbində oxuduğu illərdə bu təhsil ocağının, rayon Mədəniyyət və Turizm Şöbəsinin keçirdiyi tədbirlərdə məlahətli səsi ilə çıxışlar edib. Rayon və muxtar respublika səviyyəli yarışlara qatılıb. Bu yarışlarda da uğurlar qazanıb. Həmin yarışlarda ancaq birinci və ya ikinci yerlərə sahib olub. İlk ən böyük uğuru Naxçıvan Muxtar Respublikası uşaq musiqi məktəblərinin muğama maraq göstərən şagirdləri arasında qalib çıxaraq Astarada keçirilən beşinci Uşaq Muğam Müsabiqəsinə vəsiqə alması,



bu yarışda ikinci yerə layiq görülməsidir.

Nehrəm Kənd Uşaq Musiqi Məktəbini bitirdikdən sonra təhsilini Naxçıvan Musiqi Kollecində davam etdirib. Azərbaycan Respublikasının əməkdar artisti Qurban Qasımovun sinfində xanəndəlik sənətinin sirlərini əxz etməyə, xalqımızın bu qiymətli milli sərvətinin yaşadılması üçün muğamı dərindən öyrənməyə davam edib.

Qurban Qasımovun dediklərindən: – Sevincimi sözlə izah etməyə çətinlik çəkirəm. Mən belə olacağını bilirdim. Çünki Sərxan yüksək musiqi duyumuna malik gəncdir, istedadlıdır. Öz üzərində ciddi çalışmaqdan yorulmur. Muğam ifa edənlər üçün vacib cəhətlərdən biri səlis diksiyaya, sözləri təmiz tələffüz etməyə malik olmaqdır. Bu keyfiyyətlər onda var. 2009-cu ildə İran İslam Respublikasının Rəşt şəhərində keçirilən beynəlxalq festivalda Sərxan 15 dövlət arasında Azərbaycan Respublikasını təmsil edirdi. O, həmin festivaldan xüsusi hədiyyə və diploma Naxçıvana qayıdanda bir daha əmin oldum ki, bu istedadlı gəncin parlaq gələcəyi var. Onun müəllimi kimi bu gün fəxr edirəm.

Kollecin muğam müəllimi Əbülfəz Məmmədov, konsertmeyster Əşrəf Abdullayev və başqaları Sərxanın növbəti uğurunu təbii sayırlar. Bunu gələcəkdə qazanacağı qələbələrin ilkinlərindən hesab edirlər.

***Münsiflər heyəti bu səsi çoxdan axtarırdı***

Axşamkı müsabiqədən aldığım təəssüratları yaşaya-yaşaya müsabiqənin münsiflər heyətinin üzvləri ilə əlaqə saxladım. İlk olaraq, münsiflər heyətinin rəhbəri Nadir Axundovla sevincimi bölüşdüm. Telefonda hiss etdim ki, onun da ürəyi doludur:

– Sərxan çox gözəl oxudu. Elə də olmalıydı. Mübaliğə hesab etməyin, onun damarlarında musiqi axır. Düzünü deyim ki, 10 ildən çoxdur, belə səs axtarırdıq və Naxçıvanda tapdıq. Bunu da təbii hesab edirəm. Hüsnü Qubadov, Abdulla əmi (Azərbaycan Respublikasının xalq artisti, Prezident təqaüdçüsü Abdulla Babayevi nəzərdə tutur), Nuriyyə Hüseynova və başqaları bu torpağın mayasından qidalanıblar. Ancaq çoxdan idi ki, bu sırada heç kimi görmürdük. Nəhayət, həmin postu Sərxan tutdu. Onun Naxçıvandakı pərəstişkarlarını ürəkdən təbrik edirəm. Biz müsabiqənin bir turunu Naxçıvanda keçirəndə bu qədim diyarda nə qədər muğam fanatı olduğunu gördüm. Bir məsələni də nəzərinizə çatdırım. Sərxan Bünyadzadə münsiflər heyətinin yekdil fikriylə müsabiqənin qalibi adını qazandı. Bu, hər müsabiqə iştirakçısına nəsib olmur. Əminəm ki, Sərxan Bünyadzadə həm Heydər Əliyev Fondunun, həm də münsiflər heyətinin qayğısını bundan sonra da görəcək.

***Sərxanın böyük gələcəyi var***

Bu qənaət isə görkəmli muğam ustası, Azərbaycan Respublikasının xalq artisti Mənsum İbrahimova məxsusdur. Məlumat üçün bildirim ki, müsabiqənin Naxçıvanda keçirilən turunda onunla görüşüb müsahibə götürərkən də Mənsum müəllim Sərxan haqqında yüksək fikirlər söyləmişdi. Sərxanın müsabiqədəki qələbəsi onu bu gənc muğam ifaçısı haqqında daha ətraflı danışmağa ruhlandırmışdı:

– Sərxanı uşaq vaxtlarından tanıyıram. 2002-ci ildən bəri müsabiqəyə namizədlər seçərkən onun qabiliyyətini görmüşəm. Nəhayət, onunla birgə işləməli olduq. Nəticəsi göz qabağındadır. Sərxan yüksək səhnə mədəniyyətinə malik, daim öyrənmək həvəsilə çalışan istedadlı gəncdir. O, möhtəşəm bir yolun başlanğıcına uğurla qədəm qoydu. Bu uğurların getdikcə artacağına böyük inamım var. Çünki çalışqandır. Gücünü istiqamətləndirməyi bacarır, səsinin qədrini bilir. Bütün bunlar Sərxanın böyük gələcəyindən soraq verir. Sevinirəm ki, Azərbaycan muğam sənətinə və səhnəsinə yeni səs gəlir. Bu münasibətlə bütün muğamsevərləri, Sərxanın müəllimlərini və pərəstişkarlarını ürəkdən təbrik edirəm.

***Özü ilə telefon söhbəti***

Zarafatla Sərxana: sənə Naxçıvandan Naxçıvan boyda salamlar, – dedim. Ürəkdən güldü. Qazandığı qələbə münasibətilə təbrik etdim. Belə böyük uğur qazanmasında kimə minnətdar olduğunu soruşdum.

– Ən əsası dövlətimizə borcluyam, – deyərək əlavə etdi: – Muxtar respublikamızda gənc istedadların düzgün istiqamətləndirilməsi üçün müxtəlif sahələrdə görülən işlər öz bəhrələrini verir. Diyarımızda musiqi, şahmat, idmanla məşğul olan yeniyetmələr üçün hərtərəfli şərait yaradılması məqsədilə yeni binalar inşa olunur. Onların maddi-texniki bazası gücləndirilir. Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis olunması, onlara xüsusi aylıq təqaüd müəyyən edilməsi və digər bu kimi tədbirlər naxçıvanlı gənclərin müxtəlif sahələrdə istedadlarını nümayiş etdirmələrinə və qələbələr qazanmalarına stimul olub. Mən də onlardan biriyəm. Bunun üçün Nehrəm Kənd Uşaq Musiqi Məktəbinin bütün kollektivinə, Məzahir müəllimə, Hünər müəllimə, Naxçıvan Musiqi Kollecinin kollektivinə, Qurban müəllimə, Əbülfəz müəllimə, Əşrəf müəllimə minnətdarlığımı bildirməyi özümə borc sayıram. Sevinirəm ki, onların zəhməti hədər getmədi.

*Sərxandan gələcək planlarını soruşdum. Bildirdi ki, Azərbaycan Milli Konservatoriyasına daxil olmaq istəyir. Bunun üçün Azərbaycan Respublikasının əməkdar artisti Gülyaz Məmmədova onunla məşğul olur. Ona da minnətdarlığını bildirən Sərxanın bu arzusuna da çatacağına inanırıq.*

**Muxtar MƏMMƏDOV**

# Dövlət Bayrağı Günü ilə əlaqədar idman yarışları keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və muxtar respublika Güləş Federasiyasının tədbirlər planına uyğun olaraq, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə cüdo üzrə şəhər birinciliyi keçirilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən yarışda iki yaş qrupunda 80-ə yaxın idmançı mübarizə aparıb. Qalib idmançılar diplomlarla təltif ediliblər.

* * *

Naxçıvan şəhər ümumtəhsil məktəblərinin komandaları arasında şahmat birinciliyi keçirilib. Naxçıvan şəhərindəki Şahmat Mərkəzində təşkil edilən, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin keçirdiyi yarışda 17 komandada 100-ə yaxın şahmatçı mübarizə aparıb. İki gün davam edən birinciliyin ilk mərhələsində şahmatçılar olimpiya sistemi, ikinci mərhələyə qalan komandalar isə dairəvi sistemlə yarışıblar. Yekun nəticəyə görə, Naxçıvan şəhər 8, 10 və 11 nömrəli tam orta məktəblərin komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutublar. Fəxri yerləri tutmuş komanda və şahmatçılara diplomlar verilib.

* * *

Dünən Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbində 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar paralimpiyaçılar arasında şahmat üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının birgə təşkil etdiyi birinciliyin açılış mərasimində federasiyanın sədr müavini Elçin Nəzərəliyev və Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli çıxış edərək yarışın əhəmiyyətindən danışıblar. Birincilikdə 30 paralimpiyaçı iştirak edib. Gərgin mübarizədən sonra Kəngərli rayon paralimpiyaçısı Sücaəddin Seyidov qalib olub. Babək rayon təmsilçisi Elşən Əliyev ilə Kəngərli rayon idmançısı Ələkbər Əsgərov ikinci və üçüncü yerləri tutublar.

Sonda qaliblərə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının hədiyyələri təqdim edilib. Həmçinin yer tutmayan digər iştirakçılara həvəsləndirici mükafatlar verilib.

# Karateçilər öz qüvvələrini sınayıblar

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 12 Noyabr – Konstitusiya Gününə həsr olunmuş karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində baş tutan yarışın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək idmançılara uğurlar arzulayıblar. Karate-donun şotokan və kontakt karate növləri üzrə keçirilən birincilikdə 150 idmançı mübarizə aparıb. 6 yaş qrupunda şotokan növü üzrə keçirilən yarışlarda Salman Hüseynov, Həsən Həsənzadə, Əkrəm Nəcəfov, Mirpaşa Kərimov, Xəzər Əliyev və Cavid Seyidov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Kontakt növü üzrə 5 yaş qrupunda mübarizə aparan idmançılar arasında isə Tayfun İsmayılov, Eltun Əsgərov, Mikayıl Cəfərov, Rəşad Hüseynli və Fərid Cəfərov qalib adına layiq görülüblər. Fəxri yerləri tutan idmançılara yarışın təşkilatçıları tərəfindən diplomlar verilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, 93/10 ünvanında yaşayan Əsədov Əliəkbər Qurban oğlunun adına olan 8727 inventar nömrəli texniki pasport, 04/329[B] nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Vayxır kəndində yaşamış Zamanov Kərəm Əziz oğlunun adına olan JN-193[A] inventar nömrəli, 10313018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi, döngə 2, ev 6-da yaşayan Əhmədov Əli İsrafil oğlunun adına olan 4031 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Yavər Rza oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti Hüseyn Bağırsoya, atası **QƏDİRULLANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin əməkdaşı Fatma Hüseynovaya, əzizi **ZƏRNİŞAN XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Aytən Əhmədovaya, qayınatası **HÜSEYN ƏHMƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İlqar Əliyev və Cəfər Zamanov dostları Ramin Əhmədova, atası **HÜSEYN ƏHMƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından Vəli Baxşəliyev, Firudin Rzayev, Rafiq Babayev, Nizami Alıyev dostları Adil Bağırova, əzizi **QƏDİRULLANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının, Mətbuat şöbəsinin və Universitet televiziyasının əməkdaşları Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov və muzeyin kollektivi iş yoldaşları Ülviyyə Məmmədovaya, atası **QƏDİRULLANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin xarici tələbələrlə iş üzrə dekanlığın əməkdaşları Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 1023